# GÜRCÜSTAN

SAYI 47-48 (13.417)

CÜMƏ 20 İYUN 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## BAŞ NAZİR SƏUDİYYƏ ƏRƏBİSTANININ İNKİŞAF FONDUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞÜB



*Baş nazir İrakli Kobaxidze Səudiyyə Ərəbistanının İnkişaf Fondunun icraçı direktoru Sultan Əbdürrəhman Əl-Mərşad ilə görüş keçirib.*

Bu barədə hökumətin mətbuat xidməti məlumat yayıb.

Məlumata görə, görüş zamanı iki ölkə arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub. Tərəflər Gürcüstan və Səudiyyə Ərəbistanı arasında iqtisadi əlaqələrin genişləndirilməsi imkan-larını nəzərdən keçiriblər.

Görüşdə Gürcüstanın iqtisadi inkişafında müşahidə olunan müsbət dinamika və ölkənin enerji, yol, liman infrastrukturu və hava limanları kimi sahələrdəki investisiya potensialı xüsusi diqqət mərkəzində olub.

Səudiyyə Ərəbistanının İnkişaf Fondunun rəhbəri Gürcüstana nümayəndə heyəti ilə birlikdə işgüzar səfər çərçivəsində gəlib.

Hökumət Administrasiyasında keçirilən görüşdə həmçinin Gürcüstanın maliyyə naziri Laşa Xutsişvili və Hökumət Administrasiyasının rəhbəri Levan Jorjoliani də iştirak ediblər.

## GÜRCÜSTANIN BAŞ PROKURORU VƏZİFƏSİNƏ QİORQİ QVARAKİDZENİN NAMİZƏDLİYİ İRƏLİ SÜRÜLÜB

***Prokurorluq Şurası Gürcüstanın Baş prokuroru vəzifəsinə Qiorqi Qvarakidzenin namizədliyini irəli sürüb.***

Q. Qvarakidze hazırda baş prokuror vəzifəsini icra edir. Onun namizədliyini şuranın rəhbəri Şota Tkeşelaşvili təqdim edib. O, 14 mümkün səsdən 10 səs toplayıb. Qvarakidzenin rəqibi olmayıb. Namizədi Parlament təsdiqləməlidir. Q. Qvarakidze təsdiqlənərsə, iyunun əv-vəlində istefa vermiş Qiorqi Qabitaşvilini əvəz edəcək. Onun istefasına rəsmi səbəb ölkənin baş auditi vəzifəsinə keçməsi olub. Qiorqi Qvarakidze təcrübəli prokurordur. O, 2003-cü ildən pro-kurorluq orqanlarında işləməyə başlayıb. Bu illər ərzində o, İmereti və Acarıstanda müxtəlif vəzifələrdə çalışıb, 2025-ci ilin may ayından iyun ayına kimi Tbilisinin prokuroru olub. İyun ayında o, baş prokurorun birinci müavini təyin olunub.

Q. Qvarakidzenin namizədliyinin irəli sürülməsi proseduru artıq yeni sistem əsasında baş verib. İyun ayında



Gürcüstan parlamenti - səs çoxluğu ilə, sürətləndirilmiş qaydada -"Prokurorluq haqqında" qanuna dəyişiklikləri qəbul edib. Dəyişikliyə əsasən, QHT və akademik dairələrin nümayəndələri namizədlərin irəli sürülməsi prosesindən kənarlaşdırılıb. Yeniliklər səsvermə prosedurunu da sadələşdirib və namizədin ilk dəfə dəstəklənmə-yəcəyi təqdirdə namizədliyini yenidən irəli sürməyə imkan verib.

## GÜRCÜSTANDA MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASI LƏĞV EDİLİR

***Gürcüstanda Milli Təhlükəsizlik Şurası 2025-ci il sentyabrın 1-dən etibarən ləğv oluna bilər.***



Bu barədə qanunvericilik təşəbbüsü ilə Gürcüstan hökuməti parlamentə müraciət edib. Hökumət Administrasiyasının mətbuat xidmətindən verilən məlumata görə, Milli Təhlükəsizlik Şurası ləğv edildikdən sonra onun səlahiyyətlərini Gürcüstan hökuməti həyata keçirəcək. Parlamentin razılığı ilə bu dəyişikliklər "Milli təhlükəsizlik siyasətinin planlaşdırılması və koordinasiyası qaydası haqqında" Gürcüstan qanununa daxil ediləcək. Həmçinin, Şura aparatının ləğvi məqsədilə ləğvetmə komissiyası yaradılacaq. Komissiyanın tərkibi, fəaliyyət qaydası və səlahiyyətləri Gürcüstan hökuməti tərəfindən müəyyən olunacaq. Məlumata görə, Milli Təhlükəsizlik Şurası aparatının aktivləri və o cümlədən, Milli Vəziyyət Otağının fəaliyyətinin təmin olunması səlahiyyəti müvafiq dövlət qurumlarına təhvil veriləcək.

## GÜRCÜSTAN VƏ TÜRKİYƏNİN PARLAMENT SƏDRLƏRİ REGİONAL ƏMƏKDAŞLIĞI MÜZAKİRƏ EDİBLƏR



***Türkiyəyə rəsmi səfəri çərçivəsində Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş ilə görüşüb.*** Görüşdə Gürcüstan və Türkiyə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın siyasi və iqtisadi sahələrdə əldə etdiyi əhəmiyyətli uğurlar xüsusi vurğulanıb. Tərəflər yüksək səviyyəli qarşılıqlı səfərlərin artan dinamikasına diqqət çəkiblər. Gürcüstan tərəfi Türkiyənin ölkənin ərazi bütövlüyü və işğalların tanınmaması siyasətinə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib. Görüş zamanı Gürcüstan, Azərbaycan və Türkiyə parlamentləri arasında üçtərəfli əməkdaşlıq formatlarının əhəmiyyəti vurğulanıb və yaxın vaxtlarda parlament sədrləri səviyyəsində üçtərəfli görüşün keçirilməsinin planlaşdırıldığı bildirilib. Tərəflər regional və beynəlxalq proseslərə də toxunub, bölgədə sülh və sabitliyin təmin olunması üçün birgə əməkdaşlığa hazır olduqlarını bəyan ediblər. Enerji və nəqliyyat əlaqələrinin gücləndirilməsi, Orta Dəhliz üzrə əməkdaşlığın genişləndirilməsi əsas müzakirə mövzularından olub. Gürcüstan parlamentinin sədri Numan Kurtulmuşu rəsmi səfərlə Gürcüstana dəvət edib.

## ABŞ ORDUSU YÜKSƏK HAZIRLIQ VƏZİYYƏTİNƏ GƏTİRİLİB

Pentaqon ABŞ-nin Yaxın Şərqdəki bazalarında qoşunları yüksək hazırlıq vəziyyətinə gətirib. Bu barədə "The New York Times" yazıb. Məlumata görə, Birləşmiş Ştatlar BƏƏ, İordaniya və Səudiyyə Ərəbistanındakı hərbi bazalarda qüvvələrini yüksək hazırlıq vəziyyətinə çatdırıb. Bildirilir ki, bölgədə 40 mindən çox ABŞ əsgəri cəmləşib. Həmçinin "The New York Times" kəşfiyyat məlumatlarına istinadən qeyd edir ki, İran ABŞ-nin müharibəyə qoşulacağı təqdirdə Yaxın Şərqdəki Amerika bazalarına zərbələr endirmək üçün raket və digər hərbi texnikasını hazırlayıb.



## 20 MÜSƏLMAN ÖLKƏSİ İSRAİLİN İRANA HÜCUMUNU PİSLƏYİB

***20 müsəlman ölkəsinin xarici işlər nazirləri birgə bəyanat yayaraq İsrailin İrana hücumunu pisləyib.***

Bu barədə "Tasnim" agentliyinə istinadən xəbər verilib. Bəyanatı İraq, Qətər, Səudiyyə Ərəbistanı, BƏƏ, Oman, Küveyt, Bəhreyn, İordaniya, Misir, Sudan, Əlcəzair, Komor adaları, Cibuti, Somali, Liviya, Mavritaniya, Pakistan, Türkiyə, Çad və Bruney xarici işlər nazirləri imzalayıblar.

Sənəddə qeyd olunub ki, gərginliyin artması bütün regionun təhlükəsizliyi və sabitliyi üçün ciddi nəticələr doğurur və bu hücum dərhal dayandırılmalıdır. Bəyanatda İsrailin İrana qarşı həyata keçirdiyi hərbi əməliyyatların beynəlxalq hüquq və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsini pozduğu və gərginliyin azaldılması, atəşkəsə nail olunması üçün səylərin birləşdirilməsinin vacibliyi vurğulanıb.

## TOM KRUZ GÖRKƏMLİ KARYERASINA GÖRƏ FƏXRİ "OSKAR" MÜKAFATINA LAYİQ GÖRÜLƏCƏK



***62 yaşlı məşhur aktyor və prodüser Tom Kruz kino sənətinə verdiyi mühüm töhfələrə görə fəxri "Oskar" mükafatına layiq görüləcək. Bu barədə Amerika Kino Sənəti və Elmləri Akademiyası rəsmi məlumat yayıb.***

"Qeyri-mümkün missiya", "Dünyaların müharibəsi", "Top Qan: Maverik" və "Amerika istehsalı" kimi filmlərlə yadda qalan Kruz daha əvvəl dörd dəfə "Oskar" mükafatına namizəd olub. Akademiyanın Prezidenti Canet Yanq bildirib ki, builki "Governors Awards" mərasimində kino dünyasında əhəmiyyətli karyeraları və kino ictimaiyyətinə təsirləri ilə seçilən dörd əfsanəvi şəxs mükafatlandırılacaq.

Tom Kruzla yanaşı, fəxri "Oskar" mükafatına müğənni Dolli Parton, aktrisa Debbi Allen və prodüser Uin Tomas da layiq görülüblər.

Mükafatlar 16 noyabr 2025-ci il bazar günü keçiriləcək 16-cı "Governors Awards" mərasimində təqdim olunacaq.

# XARİCİ İŞLƏR NAZİRİ ABŞ DÖVLƏT DEPARTAMENTİNİN BAŞ MÜŞAVİRİ İLƏ GÖRÜŞÜB




***Xarici işlər naziri Maka Boçorişvili Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinin baş müşaviri Uayt Tolkeslə görüş keçirib.***

Bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb.

Görüşdə Gürcüstanla ABŞ arasında ikitərəfli münasibətlər, əməkdaşlığın gələcək perspektivləri və regionda baş verən proseslər müzakirə olunub.

Tərəflər vurğulayıblar ki, Gürcüstan ABŞ-nin vacib tərəfdaşıdır. Xarici işlər naziri Maka Boçorişvili Gürcüstan tərəfinin ABŞ ilə strateji tərəfdaşlığın yenilənməsinə hazır olduğunu bir daha diqqətə çatdırıb.

Görüş zamanı həmçinin regionda və dünyada mövcud olan təhlükəsizlik çağırışları ətrafında fikir mübadiləsi aparılıb. Gürcüstanın bölgədə sülhün və sabitliyin təmin olunmasında mühüm rol oynadığı qeyd edilib.

# MALİYYƏ NAZİRLİYİNİN GƏLİRLƏR XİDMƏTİNDƏ KADR DƏYİŞİKLİYİ OLUB



***Levan Kakava Maliyyə Nazirliyinin Gəlirlər Xidmətinin rəhbəri vəzifəsindən istefa verib və onun yerinə İrakli Beraia təyin edilib.***

Bu barədə Maliyyə Nazirliyinin Gəlirlər Xidməti məlumat yayıb.

Məlumatda bildirilir ki, Beraia indiyədək Maliyyə Nazirliyinin İstintaq Xidmətinə rəhbərlik edib.

***İrakli Beraia 23 iyul 1976-cı ildə anadan olub. 1998-ci ildə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin İqtisadiyyat fakültəsini bitirib. 2016–2025-ci illərdə Gürcüstan parlamentinin 9-cu, 10-cu və 11-ci çağırışlarının deputatı olub. Ədliyyə nazirinin müavini vəzifəsini tutub.***

# GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ ARTIB



***Cari ilin yanvar-may ayları ərzində Gürcüstanın xarici ticarət dövriyyəsi 2024-cü ilin eyni dövrü ilə müqayisədə 13,3 faiz artaraq 9,8 milyard dollar təşkil edib.***

Bu barədə Milli Statistika Xidmətinin saytında dərc olunan hesabatda deyilir.

Bildirilir ki, hesabat dövründə ölkəyə 7,2 milyard dollar dəyərində məhsul idxal edilib ki, bu da 2024-cü ilin yanvar - may aylarının göstəricisindən təxminən 13 faiz çoxdur.

İxracın həcmi 2,6 milyard dollar təşkil edib; bu da 2024-cü ilin beş ayı ilə müqayisədə 14,6 faiz artım deməkdir. Gürcüstanın bu dövrdə mənfi ticarət saldosu 4,6 milyard dollar təşkil edib ki, bu da ötən ilin analoji göstəricisindən 11,8 faiz çoxdur.

# GÜRCÜSTAN SENTYABRIN 1-DƏN İNFORMASİYA TEXNOLOGİYALARI MÜTƏXƏSSİSLƏRİ ÜÇÜN XÜSUSİ YAŞAYIŞ İCAZƏSİ TƏTBİQ EDƏCƏK



***Gürcüstanda "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusu haqqında" qanuna İT mütəxəssisləri üçün yaşayış icazəsinin yeni formasını tətbiq etməklə sentyabrın 1-dən qüvvəyə minəcək.***

İT yaşayış icazəsi üç il müddətinə, uzadılma imkanı ilə, maksimum 12 il müddətinə veriləcək. Bu növ yaşayış icazəsi təkcə İT mütəxəssislərinə deyil, həm də onların ailə üzvlərinə veriləcək.

Dəyişikliklər üçüncü, yekun oxunuşda qəbul edilib və qanunvericilik bülleteninin internet saytında dərc olunub.

İT sektorunda çalışan əmək miqrantlarına həm beynəlxalq şirkətlərdə işə qəbul olunmaq, həm də Gürcüstanda "kiçik biznes" statusunda olan şəxslərə xüsusi yaşayış icazəsi veriləcək.

Xüsusi yaşayış icazəsi üçün müraciət edənlər Əmək, Səhiyyə və Əhalinin Sosial Müdafiəsi Nazirliyində qeydiyyatdan keçməlidirlər. Bunun üçün ən azı iki illik iş təcrübəsini təsdiq edən sənəd, həmçinin ildə ən azı 25 min dollar olması lazım gələn gəlir sertifikatı təqdim etməlisiniz.

Status sahibi 12 ayda 183 gündən az müddət ərzində faktiki olaraq Gürcüstanda olmadıqda statusa xitam veriləcək.

Gürcüstan hökumətinə sentyabrın 1-dək informasiya texnologiyaları ilə bağlı fəaliyyətlərin siyahısını müəyyən etmək, mütəxəssislərin qeydiyyatı qaydasını və mexanizmini hazırlamaq tapşırılıb.

# GÜRCÜSTANDAN SERBİYAYA BİRBAŞA UÇUŞLAR BAŞLAYIR

***Gürcüstanın hava nəqliyyatı bazarına yeni Avropa aviaşirkəti – "Air Serbia" daxil olub. Şirkət Tbilisidən Belqrada birbaşa uçuşlar hayata keçirəcək.***

Bununla bağlı Gürcüstan Hava Limanları Birliyi məlumat verib.

Bildirilib ki, aviaşirkət Tbilisi-Belqrad və əks istiqamətdə həftədə 3 dəfə Airbus 319 təyyarəsi ilə müntəzəm reyslər yerinə yetirəcək.

Birliyin baş direktoru Levan Moseşvili bildirib ki, indiyədək Gürcüstan və Serbiya arasında birbaşa və müntəzəm hava əlaqəsi olmayıb.

Tbilisi–Belqrad istiqamətində aviabiletlərin qiymətinə gəldik də isə "Air Serbia"nın rəsmi saytında verilən məlumata əsasən, Tbilisi–Belqrad marşrutu üzrə iyun ayında bir biletin qiyməti 191 avrodan başlayır və 276 avroya qədər yüksəlir.

Qeyd edək ki, "Air Serbia", 1927-ci ildə yaradılmış Serbiyanın ilk milli aviaşirkəti olan Aeroputun varisidir. 2024-cü ildə Gürcüstan və Serbiya arasında ümumi sərnişin axını 16. 839 nəfər təşkil edib ki, bu da 2023-cü illə müqayisədə 66 faiz çoxdur.



# FACİƏVİ FƏLAKƏTDƏN 10 İL KEÇDİ





Fotolar E.Şahvələdindir.

***13 iyun 2015-ci ildə Gürcüstanın paytaxtı Tbilisi şəhərində böyük təbii fəlakət - daşqın baş verib.*** Gecədən başlayan leysan yağış nəticəsində şəhərin bəzi rayonlarında bir çox evlərin həyətləri, binaların aşağı mərtəbələri və zirzəmiləri, yeraltı keçidlər, zoopark suyun altında qalıb. Daşqın vaxtı şəhər zooparkından 6 şir, 6 pələng, 7 ayı, 13 canavar və 1 begemot qaçıb. Heyvanlardan bəzilərini tutmaq mümkün olub, bəziləri isə məcburi qaydada zərərsizləşdirilib.

Fəlakət nəticəsində 12 adam həlak olub. Faciə ilə bağlı iyunun 15-də Gürcüstanda matəm elan olunub.

**Füzuli Rüstəmov,**
**"Gürcüstan" qəzetinin təəssübkeşi.**

## Sitat guşəsi



"Əgər bəzi "xoş-niyyətli" şəxslərə qulaq assaydıq, bu gün Gürcüstan da xarabalığa çevrilmiş olardı. Buna görə də hər bir dövlət və xalq ilk növbədə, öz maraqlarını nəzərə almalıdır."

**Şalva Papuaşvili,**
**Gürcüstan Parlamentinin sədri.**



"Hazırda İran səmasının tam və total nəzarəti bizdədir. Onların yaxşı radar sistemləri və digər müdafiə texnikaları var, amma bunlar ABŞ-də hazırlanmış və qurulmuş texnologiyalarla müqayisə olunmazdır... Əli Xameneinin harada gizləndiyini dəqiq bilirik. O, asan hədəfdir, lakin orada təhlükəsizdir – onu öldürmək niyyətində deyilik, ən azından bu anda. Amma biz mülki şəxslərə və ya amerikalı əsgərlərə yönəlmiş raketləri istəmirik. Səbirimiz tükənir".

**Donald Tramp,**
**ABŞ-nin Prezidenti.**



"Müasir dövrdə dünyada olduqca mürəkkəb geosiyasi hadisələr baş verir. Milli, regional və qlobal təhlükəsizliyə qarşı çoxsaylı təhdidlərin yaranması və ölkələrin müxtəlif siyasi, hərbi, iqtisadi, mədəni, humanitar, ekoloji çağırışlarla üzləşməsi fonunda beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzlərinin meydana çıxması və yeni dünya nizamına keçid prosesi müşahidə olunmaqdadır. Belə bir şəraitdə dövlət maraqlarının, ölkələrin müstəqilliyinin və suverenliyinin qorunması, sülh, sabitlik, əməkdaşlıq və çoxtərəfli inkişaf naminə səylərin birləşdirilməsi müstəsna əhəmiyyətə malikdir".

**İlham Əliyev,**
**Azərbaycanın Prezidenti.**



"Netanyahu bölgə üçün ən böyük təhlükədir və İsrailin bu təxribatlarının qarşısı alınmalıdır. Əks halda, vəziyyət nəzarətdən çıxacaq".

**Rəcəb Tayyib Ərdoğan,**
**Türkiyənin Prezidenti.**



"Hazırkı əməliyyatlar düşməni çəkindirmək məqsədi daşıyırdı, lakin əsl cəza əməliyyatları hələ qabaqdadır".

**Əmir Musəvi,**
**İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi.**



"İranlı nazirdən mən müsbət işarə aldım. O, mənə bildirdi ki, İran Hörmüz boğazında ticarət gəmilərinin hərəkətinə əngəl yaratmaq niyyətində deyil".

**Antonio Tayani,**
**İtaliyanın xarici işlər naziri.**

## REGİON XƏBƏRLƏRİ

### Rustavi: RUSTAVELİ KÜÇƏSİNDƏ BƏRPA İŞLƏRİ APARILIR



***Rustavidə şəhərin tarixi rayonlarının bərpası çərçivəsində Rustaveli küçəsinin abadlaşdırılmasının üçüncü mərhələsi davam edir.***

Şəhərin ən qədim küçələrindən birində yaşayış binalarının orijinal görkəmi qorunmaqla bərpa işləri görülür.

Tarixi küçənin abadlaşdırılmasının yeni mərhələsinə Rustaveli küçəsindəki 25, 34 və 36 nömrəli yaşayış binalarının tam təmiri daxildir. İşlərə başlamazdan əvvəl Nino Latsabidze Gürcüstan Parlamentində Rustavinin təmsilçisi və İnfrastruktur Xidmətinin nümayəndələri ilə birlikdə layihəni əhaliyə təqdim edib. Yaxın günlərdə hər üç binanın möhkəmləndirilməsi və bərpası prosesinə başlanacaq.

Rustaveli küçəsindəki daha bir yaşayış binasında – Rustaveli, 32 saylı binada da işlər aktiv şəkildə davam etdirilir.

Layihəyə fasadların tam bərpası, eyvanların yenilənməsi, dekorativ işıqlandırmaların, məhəccərlərin, qapı-pəncərələrin quraşdırılması daxildir.

Köhnə Rustavinin abadlaşdırılması çərçivəsində Rustaveli küçəsinin abadlaşdırılması işləri görülür və küçənin əsas hissəsi artıq bərpa olunub.

Layihə üçün 3 milyon lariyə yaxın vəsait nəzərdə tutulub və təmir-bərpa işləri mərkəzi büdcənin maliyyələşdirilməsi ilə həyata keçirilir.

### Saqareco: "QARECOBA" BAYRAMI QEYD EDİLİB

***"Qarecoba" bayramı Saqareco Bələdiyyəsinin Udabno kəndində Çiçxituri qülləsinin yaxınlığında geniş miqyasda qeyd olunub.***



Tədbirdə Saqareco bələdiyyəsinin meri Avtandil Qulikaşvili, Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı naziri Davit Sonqulaşvili, Kaxeti regionu üzrə Dövlət Müvəkkili Qiorqi Aladaşvili, Parlamentin üzvü Qiorqi Benaşvili, Regional İnkişaf nazirinin birinci müavini Levan Zautaşvili, İdman Nazirliyinin, qanunverici və yerli hakimiyyət orqanlarının nümayəndələri iştirak ediblər.

"Qarecoba" münasibətilə Udabno kəndində görkəmli gürcü idmançı Levan Tediaşvilinin adına idman kompleksinin rəsmi açılışı olub.

Dövlət nümayəndələri bayramda iştirak edən ictimaiyyət qarşısında salamlama nitqləri ilə çıxış edərək onları "Qarecoba" münasibətilə təbrik edib, onlara xoş arzularını çatdırıblar.

"Qarecoba" xalq bayramı 1970-ci illərdən böyük David Qareci monastır kompleksində keçirilir. 1988-ci ildən sonra bu bayram yalnız bir dəfə, 1997-ci ildə kiçik miqyasda qeyd olundu. Saqareco Bələdiyyəsi Meriyası tərəfindən təşkil edilən yuxarıda qeyd olunan bayram 21 may 2018-ci il tarixində bələdiyyənin xalq bayramı kimi bərpa edilib.

Bayram şənliyinə gələn qonaqları ərazidə tematik, sərgi, uşaq əyləncələri, incəsənət məkanları qarşılayıb. "Qarecobanın Hekayələri" adlı fotosərgi də təşkil edilib.

Tədbir "İstedad"ın qalibi Nini Orkoşnelinin, "Ursa" qrupunun və yerli folklor ansambllarının iştirak etdiyi qala-konsertlə başa çatıb.

### Marneuli: AZƏRBAYCAN DİLİ ÜZRƏ I REGİONAL OLİMPİADA KEÇİRİLİB



***Marneuli şəhərində yerləşən Azərbaycan Evində Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin (GAİM) təşkilatçılığı və Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə məktəblilər arasında Azərbaycan dili üzrə I Regional Olimpiada keçirilib.*** Olimpiadada Tbilisi, Qardabani, Dmanisi, Bolnisi, Marneuli və Kaxeti bölgələrində yerləşən azərbaycandilli məktəblərdən 100-dən çox şagird iştirak edib. Olimpiadanın sonunda ilk üç yeri tutan şagirdlərə qiymətli hədiyyələr, digər iştirakçılara isə sertifikatlar təqdim olunub.

### Telavi: MER LEVAN ANDRİAŞVİLİ TELAVİ TARİX MUZEYİNDƏ KEÇİRİLƏN SƏRGİDƏ İŞTİRAK EDİB



***Telavi Bələdiyyəsinin meri Levan Andriaşvili Şəhər Şurasının sədri Tengiz Mtvarelişvili və Kaxeti regionu üzrə Dövlət Müvəkkilinin müavini Platon Kalmaxelidze ilə birlikdə əməkdar rəssam Cemal Xutsişvilinin Telavi Tarix Muzeyində keçirilən yubiley sərgisində iştirak edib.***

Gürcüstan incəsənətini və rəssamlığını ölkədən kənarda məşhurlaşdıran Cemal Xutsişvili 2014-cü ildən Telavinin fəxri vətəndaşı statusunu daşıyır. Onun əsərləri Parisdəki Müasir Rəssamlar Qalereyasında nümayiş olunur. Gürcüstanda Cemal Xutsişvilinin rəsmləri Tbilisinin və regionların dövlət muzeylərində sərgilənir və mühafizə olunur.

Cemal Xutsişvilinin əsərləri Telavi Tarix Muzeyinin qalereyasında 1 ay müddətində nümayiş olunacaq.

## BEYNƏLXALQ HƏYAT

### ƏRDOĞAN: "İRANA HÜCUM TƏKCƏ İRANA AİD OLAN HADİSƏ DEYİL"



***"Türkiyə İran-İsrail müharibəsi ilə bağlı öhdəsinə düşən hər şeyi etməyə hazırdır".***

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hökumətin iclasından sonra çıxışında deyib.

O bildirib ki, rəsmi Ankara hərbi gərginliyi dayandırmaq üçün ciddi diplomatik səylər ortaya qoyur.

Ərdoğan həmçinin söyləyib ki, o, bu məqsədlə müxtəlif ölkələrinin liderləri ilə danışıb:

*"Problemin həlli diplomatiya və dialoq yolu ilə mümkündür. İrana hücum təkcə İrana aid olan hadisə deyil"*, - deyə dövlət başçısı əlavə edib.

Bu arada, Rusiya prezidenti Vladimir Putin və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan telefon danışığı zamanı İsrailin İrana qarşı güc tətbiqini pisləyib və hərbi əməliyyatları dərhal dayandırmağa çağırıb.

### NETANYAHU: "İSRAİL XAMENEİNİN MƏHV EDİLMƏSİNİ İSTİSNA ETMİR"

***İsrailin Baş naziri Benyamin Netanyahu bəyan edib ki, İsrail İranın ali dini lideri Ayətullah Əli Xameneinin məhvini istisna etmir.***



*"Bu, münaqişənin eskalasiyasına səbəb olmayacaq, aksinə, onu bitirəcək. Bu rejim artıq yarım əsrdir Yaxın Şərqdə münaqişə, terror və təxribat yayır. İran daimi müharibə istəyir və bizi nüvə müharibəsi həddinə gətirib çıxarır. Əslində, İsrail bu qarşıdurmanın qarşısını almaq üçün əlindən gələni edir və bunu ancaq şər qüvvələrinə qarşı mübarizə apararaq bacarırıq. Detallara varmadan deyə bilərəm ki, biz onların nüvə alimlərini hədəfə almışıq. Əslində, bu, Hitlerin nüvə elmi komandasına bənzəyir,"* – deyə Netanyahu ABC News-a müsahibəsində bildirib.

Baş nazirin sözlərinə görə, İsrailin bu mübarizəsi ABŞ-nin da maraqlarına xidmət edir:

*"Bu gün hədəfdə Tel-Əvivdir, sabah isə Nyu-York olacaq. "Amerika birinci yerdədir" şüarını başa düşürəm, amma "ölü Amerika"" ideyasını anlaya bilmirəm. Onlar "Amerikaya ölüm" şüarını səsləndirirlər. Biz bəşəriyyət üçün mübarizə aparırıq — bu, xeyirin şərə qarşı mübarizəsidir. Amerika xeyirin tərəfindədir. Donald Tramp da məhz bunu edir və onun dəstəyini yüksək qiymətləndiririm. Biz təkcə öz düşmənimizə qarşı deyil, sizin düşməninizə qarşı da mübarizə aparırıq. Sadəcə, biz onların qarşısında dayanmışıq və bu təhlükə tezliklə Amerikaya da çata bilər,"* – deyə Netanyahu vurğulayıb.

### GÜRCÜSTAN VƏTƏNDAŞLARI ARTIQ BAKIDAN ÖLKƏMİZ İSTİQAMƏTİNDƏ SÜRƏTLİ SƏRNİŞİN QATARINDAN İSTİFADƏ EDƏ BİLƏRLƏR

***15 iyun tarixindən etibarən Bakı-Qazax sürətli sərnişin qatarı istifadəyə verilib.***



Bu barədə "Azərbaycan Dəmir Yolları" QSC məlumat yayıb.

Yenilik Bakı - Ağstafa - Bakı istiqamətində hərəkət edən sürətli qatarların marşrutunun iyunun 15-dən Qazax stansiyasına qədər uzadılması ilə bağlıdır. Yeni marşrut üzrə ilk dəfə olaraq "Stadler Rail Group" şirkətinin istehsalı olan birmərtəbəli, müasir və komfortlu qatarlar hərəkətə buraxılıb.

Əvvəllər (2019-cu ilin dekabr ayınadək) Bakıdan Qazaxa qatarla səyahət 8 saat 25 dəqiqə çəkirdisə, indi bu məsafə cəmi 5 saat 36 dəqiqəyə qət olunacaq.

Yeni hərəkət cədvəlinə əsasən, Bakıdan Qazaxa qatarlar hər gün saat 08:00 və 18:00-da yola düşərək, müvafiq olaraq saat 13:36 və 23:36-da mənzil başına çatır. Qazaxdan Bakıya isə qatarlar saat 08:00 və 16:20-də çıxaraq, saat 13:29 və 21:49-da Bakı Dəmiryol Vağzalına çatır.

Bakı - Qazax istiqamətində standart sinif yerlər üçün biletin minimal qiyməti 16,2 manat təşkil edəcək.

Qeyd edək ki, Bakıya təyyarə ilə səyahət edən Gürcüstan vətəndaşları ölkəmizə qayıdarkən Bakı-Qazax sürətli sərnişin qatarından istifadə etməklə Qazax rayonuna daha rahat və sərfəli qiymətə çata, oradan isə quru yolu ilə Gürcüstana keçə bilərlər.

### UKRAYNA ƏN ZƏNGİN MÜTTƏFİQİNİ İTİRDİ



***ABŞ artıq Ukraynanı öz taleyinin ümidinə buraxmaq niyyətini təsdiqləyib, Avropa isə əməldə deyil, sözdə kömək edir.***

Bu barədə Britaniyanın "Teleqraf" qəzeti məlumat yayıb.

Bildirilib ki, ötən həftə ABŞ-nin müdafiə naziri Pit Heqset Konqresdə keçirilən dinləmələrdə Tramp administrasiyasının Ukraynaya hərbi yardımı azaltmaq niyyətini təsdiqləyib:

*"Rusiyaya qarşı mübarizə indi Avropanın problemidir. Genişmiqyaslı müharibə zamanı Ukrayna ABŞ-dən təxminən 74 milyard dollar hərbi yardım alıb, o cümlədən "Patriot" hava hücumundan müdafiə raket sistemi, ATACMS ballistik raketləri və HIMARS raket artilleriya sistemləri kimi qiymətli sistemlər... Kiyev üçün acı nəticə ondan ibarətdir ki, onun ən güclü və ən zəngin müttəfiqi ondan əl çəkib. Lakin Avropa liderləri dəfələrlə söz verib ki, döyüşmək üçün lazım olanı Ukraynaya verəcək. Təəssüf ki, praktikada Avropa yerinə yetirməkdən daha çox vədlər verir".*

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

16 iyun 2025-ci il **“SAKARTVELOS RESPUBLİKA”**

### Roma Papası İsrail və İranı danışıqlara çağırıb

“Reuters” nəşrinin yaydığı məlumata görə, Roma Papası XIV Leo İsrail və İran hökumətlərini ağıl - kamal nümayiş etdirməyə və danışıqlara oturmağa çağırıb.

Papa Müqəddəs Pyotr Bazilikasına toplaşan xalqa hadisələri böyük narahatlıqla izlədiyini bildirib.

“Belə çətin bir zamanda İsraili və İranı məsuliyyətə və ağıl - kamala dəvət etmək istərdim” – deyə Roma Papası bəyan edib.

“Ədalət, qardaşlıq və firavanlığa əsaslanan davamlı sülhün bərqərar olması üçün qarşılıqlı hörmətə və səmimi dialoqa əsaslanan görüşlər vasitəsilə nüvə təhlükələrindən azad daha təhlükəsiz dünya qurulmasına nail olunmalıdır” – deyə XIV Leo qeyd edib.

“Heç kim heç kəsin varlığını hədələməməlidir” – deyə Roma Papası bildirib. “Barışıq yollarına başlamaq və hamı üçün təhlükəsizlik və ləyaqəti təmin edəcək həll yollarını inkişaf etdirməklə sülh işini dəstəkləmək bütün ölkələrin borcudur”, - deyə Papa əlavə edib.

### Sağlam həyat tərzini kütləviləşdirmək məqsədilə məktəb festivalı

Gürcüstanın Təhsil, Elm və Gənclər naziri Aleksandre Tsuladze Gürcüstanın Reqbi Federasiyasının prezidenti Davit Kaçarava ilə birlikdə məktəb şagirdləri üçün təşkil edilmiş idman festivalında iştirak edib.

Nazirliyin mətbuat xidmətinin yaydığı məlumata görə, Aleksandre Tsuladze “Məktəbdə idman müxtəlifliyi” adlı festival çərçivəsində keçirilən tədbirlərlə tanış olub, iştirakçılara sağlam həyat tərzinin və idman tədbirlərinə cəlb olunmanın əhəmiyyəti haqqında danışıb. Nazir festivalda iştirak edən şagirdlərin fikirlərinə qulaq asıb və onların verdiyi suallara cavab verib.

Festivalın məqsədi təhlükəsiz və əyləncəli məşqlər vasitəsilə yeniyetmələri müxtəlif idman növləri ilə tanış etmək və onları idmana cəlb etməkdir. Festival həmçinin yeniyetmələrə komanda şəklində işləmə qabiliyyətini, nizam - intizamı və idman ustalığını təşviq edən dəyərlər sistemini aşılamaq məqsədi daşıyır.

16 iyun 2025-ci il **“REZONANS”**

### İsrail – İran münaqişəsi hələlik iqtisadi böhrana səbəb olmayacaq

Yaxın Şərqdə yeni müharibənin şiddətlənməsi ticarət və iqtisadi əlaqələrə ciddi təsir göstərəcək. İranla ticarət əlaqələri Gürcüstan üçün xüsusi əhəmiyyət kəsb edir və radiasiya sızması səbəbindən sərhədin bağlanma ehtimalı yüksəkdir ki, bu da öz növbəsində kənd təsərrüfatı məhsullarının qiymətinin artmasına səbəb ola bilər. Mütəxəssislər ehtimal edir ki, bu bazarda qıtlığa səbəb olmayacaq, çünki hal-hazırda ölkəmizdə kənd təsərrüfatı məhsullarının yığım mövsümüdür.

Beynəlxalq birjalar da İsrail - İran münaqişəsi səbəbi ilə bəllı iqtisadi zərər alıb: neftin qiyməti artıq qalxıb. Hazırda “Brent” markalı neftin bir bareli 73 dollar, Amerikanın “Light” markalı neftinin qiyməti isə 72 dollardır.

Analitik Nika Şenqelia neftin qiymətinin daha da artacağını ehtimal edir. O həmçinin qeyd edib ki, radiasiya təhlükəsi səbəbindən İranla ticarət əlaqələrinə məhdudiyyət qoyularsa, kənd təsərrüfatı məhsullarının qiymətinin də artacağı gözlənilir.

"Gürcüstan - İran ticarət əlaqələri kifayət qədər aktivdir. Radiasiya sızması fonunda bu münasibətin necə olacağını və Gürcüstan hökumətinin hansı qərar verəcəyini görmək maraqlıdır. Hələlik İranın kənd təsərrüfatı məhsulları üçün sərhədin bağlanmasından söhbət gedə bilməz. Bu qaçılmaz olarsa, o zaman kənd təsərrüfatı məhsullarının qiymətləri artacaq. Dəyişiklik kimyəvi maddələr bazarına da təsir edəcək və müvafiq olaraq kənd təsərrüfatı sektoruna da təsir edəcək.

Birjalara gəlincə, dollar indeksinin zəiflədiyini, qızılın qiymətinin tarixi maksimumda olduğunu görürük. Vəziyyət pisləşərsə, bu, səhmlərə də təsir edəcək. Bundan əlavə, əgər İran dəniz kanalını bağlasa və hətta hədələsə, o zaman malların daşınması tarifləri dəyişəcək ki, bu da ümumilikdə qiymətlərə təsir edəcək və inflyasiyaya səbəb olacaq. Bildiyimiz kimi, Türkiyədən bizə konteynerlər gətirilir, amma orada da problemlər olacaq. Ümid edirik ki, vəziyyət düzələcək və dramatikləşməyəcək”, - deyə ekspert Nika Şenqelia bəyan edib.

13– 19 iyun 2025-ci il **“VEÇERNİY TBİLİSİ”**

### Suyun keyfiyyəti qaydasındadır

Qara dənizdə suyun keyfiyyətinin yoxlanılması Ətraf Mühit üzrə Milli Agentliyin prioritetidir. Agentlik hər ay, fasiləsiz rejimdə 12 nöqtədə monitorinq keçirir. Tədqiqatlar arasında 13 ağır metal, 16 poliaromatik karbohidrogenin konsentrasiyası və digər fiziki-kimyəvi göstəricilər olmaqla, dəniz suyunun hidrobioloji və kimyəvi parametrlərini əhatə edir.

Qara dənizdən götürülmüş nümunələr analiz üçün Agentliyin yüksək dəqiqlikli analitik avadanlıqla təchiz edilmiş və müasir standartlara cavab verən akkreditə olunmuş atmosfer havası, su və torpağın təhlili laboratoriyasına göndərilir.

“Ətraf Mühit üzrə Milli Agentliyin apardığı laboratoriya sınaqlarının nəticələrinə görə, Gürcüstanın bütün sahil xətti boyunca Qara dənizdə suyun keyfiyyəti normal həddədir”, - deyə Ətraf Mühit üzrə Milli Agentliyin sədri Elene Qubianuri qeyd edib.

Ətraf Mühit üzrə Milli Agentliyin apardığı laboratoriya təhlillərinin nəticələri Agentliyin rəsmi saytında dərc edilir.

## QƏZETİMİZİN XRONİKASI

**Beynəlxalq münasibət**

•Hakim “Gürcü arzusu – Demokratik Gürcüstan” partiyasından deputat Levan Maçavariani: “Hakimiyyət İran və İsrail arasında münaqişənin Gürcüstanın sabitliyinə təsir göstərməsinə imkan verməyəcək”.

•ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə baş müşaviri Uat Toelke Tbilisidədir.

•İran Nüvə Təhlükəsizliyi Tədbirləri ilə bağlı MAQATE-yə məlumat verəcək.

•Azərbaycan Mərkəzi Asiya ilə ticarət əlaqələrini gücləndirdiyini elan edib.

•Özbəkistan və Omanın nəqliyyat nazirlikləri mülki aviasiya sahəsində əməkdaşlığı əhəmiyyətli dərəcədə genişləndirmək niyyətindədirlər.

•Qətər İran-İsrail münaqişəsinin həll yollarını axtarır.

•Veteranların İşləri üzrə Dövlət Xidmətində Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) tərəfindən V. Sanikidze adına Veteranların Klinik Xəstəxanasına səyyar klinikanın təhvil verilməsi mərasimi keçirilib.

•Levan Davitaşvili: Slovakiya Avropaya inteqrasiya prosesində Gürcüstanın sabit tərəfdarıdır.

•İran polisi Rey şəhərində İsrail üçün pilotsuz təyyarə istehsal edən müəssisə aşkarlayıb. İsrail kəşfiyyatçıları da saxlanılıb.

**Diplomatiya**

•Gürcüstan prezidenti gələn ay Türkiyəyə səfər edəcək

•Paşinyan iyunun 20-də Türkiyəyə səfər edəcək.

**Mədəniyyət**

•Raçadakı muzeyin sərgi layihəsi beynəlxalq müsabiqədə qızıl mükafata layiq görülüb

**İqtisadiyyat**

•Tbilisidə Qəhrəmanlar Meydanındakı yerüstü keçid gecə saatlarında nəqliyyatın hərəkəti üçün bağlanacaq.

•Hərbi müşahidəçi Aleksandr Xrolenko: “İranın əsas silahı və “təhdid”i raketlər deyil, neftdir”.

•Əvvəlki dəyərlə müqayisədə Gürcüstanın milli valyutasının məzənnəsi dollara nisbətdə 0,0005 lari artıb.

•Tbilisidə yeni tikilən binaların satışı 5 faiz artıb, köhnə mənzillərin satışı isə 21,3 faiz azalıb.

•“Əmək miqrasiyası haqqında” qanuna dəyişiklik ediləcək; ona əsasən əcnəbilərin Gürcüstanda işləmək hüququnun pozulmasına görə cərimələr nəzərdə tutulub.

•Avtomobil Yolları Departamenti Gürcüstan-Rusiya sərhədi yaxınlığındakı Açxoti-Sno-Axaltsixe-Juta avtomobil yolunun zədələnmiş hissəsinin bərpa işlərinə başlayıb.

•2025-ci ilin yanvar-may aylarında Gürcüstana pul köçürmələrində ABŞ və İtaliya liderlik edir.

**Ekologiya**

•Gürcüstanın Ətraf Mühit Nazirliyi bildirir ki, Gürcüstanda fon radiasiyasında artım qeydə alınmayıb.

**İdman**

•Budapeştdə keçirilən dünya çempionatında 90 kq çəki dərəcəsində mübarizə aparan gürcü cüdoçu Luka Maisuradze bürünc medal qazanıb.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# MEYVƏ VƏ TƏRƏVƏZLƏRİN XÜSUSİYYƏTLƏRİ, İNSAN ORQANİZMİNƏ FAYDALARI VƏ ZƏRƏRLƏRİ

*(Əvvəli ötən sayımızda)*



**Albalı**

Latınca Prunus subg. Cerasus adlanan albalı gülçiçəyikimilər fəsiləsinə aid bitkidir. Albalının 140 müxtəlif növü var ki, ən yayğınları mərmərik albalı, maheleb albalısı və çöl albalısıdır. Güman edilir ki, mədəni albalı yabanı gilas ilə çöl albalılarının təbii hibrididir.

Qədim zamanlardan albalı müxtəlif xalqların mətbəxində və mədəniyyətində olduqca dadlı olmasına və estetik görünüşünə görə mühüm yerə sahib olub. Məsələn, Yaponyanın milli simvolu yerli albalı növü olan sakura ağacıdır. Avrasiyanın müxtəlif yerlərində, o cümlədən Qafqazda albalıdan müxtəlif mürəbbələr, kompotlar, qənnadi məmulatlar hazırlanır, bu meyvədən şirə əldə edilir, çiy halda istehlak edilir.

***Amma albalı sadəcə dada və estetik gözəlliyə yox, eyni zamanda, müxtəlif vitaminlərlə, minerallarla və orqanik turşularla zəngin olduğuna görə, insan orqanizmi üçün faydalı xüsusiyyətlərə malikdir.*** Sözügedən kəmşirin dada malik qırmızı meyvənin tərkibinə limon turşusu, alma turşusu, süksin turşusu, salisilik turşu kimi üzvi turşular; mis, dəmir, sink, yod, manqan, xrom, flüor, molibden, bor, vanadium, kobalt, nikel, rubidium kimi mikroelementlər; kalium, kalsium, fosfor və maqnezium kimi makroelementlər; pektin maddələri, orqanik şəkərlər, A, C, E, B1, B2, PP vitaminləri, fol turşusu daxildir. Meyvənin tərkibindəki kalium ürək – damar sisteminin fəaliyyətinə kömək edir, qan təzyiqini normallaşdırır və qan tərkibini düzgün saxlayır. Albalının müntəzəm istehlakı xolesterinin səviyyəsini azaltdığı sübut edilib. Albalı, xüsusilə bədənin təbii melatonin səviyyəsini artırmaq qabiliyyətinə görə yuxunu yaxşılaşdırmağa kömək edən maraqlı xüsusiyyətlərə malikdir. Albalı, yuxu-oyanma dövrünü tənzimləyən orqanizm tərəfindən istehsal olunan təbii hormon olan melatonin ehtiva edən meyvədən biridir. Böyrək xəstəliklərinin bütün mərhələlərində albalı qida rasionuna daxil edilə bilər. Albalı suyu sayəsində insanın qan təzyiqi və ürək-damar xəstəliklərinin inkişaf riskini artıran C-reaktiv zülal səviyyəsi azalır. Albalı diabetin ağırlaşmasının qarşısını alır.

***Amma unutmayaq ki, hər meyvə kimi, albalı da müəyyən əks göstərişlərə sahibdir.*** Bu meyvə aşağıda qeyd olunan problemlərə sahib insanlar tərəfindən istehlak olunmamalıdır: həzm sisteminin kəskin və xroniki xəstəlikləri olanlar; orqanizmdə turşuluq səviyyəsi yüksək olanlar; qastrit və mədə xorasından əziyyət çəkənlər. Sonda bunu da əlavə edək ki, tərkibində üzvi turşuların yüksək olması səbəbindən albalı yemək diş minasına zərər verə bilər.



# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HƏQİR** *sif.* və *zərf* [*ər.*] 1. Qədir-qiyməti, hörməti, etibarı olmayan; alçaq.

*Həqir baxma mənə qilü-qal bilməz isəm,*
*Ki əhli-hal arasında bəlayəm, ey bülbül!*

Qövsi.

2. *klas.* Təvazökarlıqla özünü başqasının qabağında kiçiltmə, heç kimi göstərmə, özünə əhəmiyyət verməmə mənasında işlənir.

*Sən də gəl abidin yanında məni,*
*Qızartma, burax bu həqir bəndəni.*

A. Şaiq.

3. Kasıb, yoxsul, miskin, zəlil.

*O birisi sadə və həqir geyimli otuz, ya bir qədər artıq sinli bir adam idi.*

C. Məmmədquluzadə.

**HƏQQÜLQƏDƏM** *is.* [*ər.*] *köhn.* Xəstə üstünə gələn həkimə verilən zəhmət haqqı.

*Üzüörtülü arvad .. bir cüt dolaq, bir tumanbağı və bir araqçın çıxarıb həkimin qabağına qoydu. Bu da həkimin həqqülqədəmi idi.*

Çəmənzəminli.

**HƏLƏ-HƏLBƏT** *zərf dan.* Mütləq, hökmən, qəti, necə olur olsun.

*Hələ-həlbət onu bu gün görməliyəm.*

*Hələ-həlbət saat beşdə bizdə ol. Göndər uşağı, Şahbacını eylə xəbərdar, Gəlsin hələ-həlbət.*

M. Ə. Sabir.

**HƏLƏLİK** 1. *zərf* Bir müddət, bir qədər, bir müddətə qədər.

*Hələlik burada otur. Hələlik gözləməli olacaqsan. Hələlik bunu özündə saxla.*
*Sonudur qış gününün, toplayaraq var gücünü,*
*Saxlamaq fikrinə düşmüş hələlik öz gücünü.*

S. Rüstəm.

2. **Hələlik!** – Xudahafiz ! Görüşənədək! Sağ ol!

[Tahir:] *Hələlik, – deyə, gülə-gülə uzuncaydaq qıza əl elədi və sürətlə uzaqlaşdı.*

M. Hüseyn.

**HƏLƏM-HƏLƏM** *dan. sif.* Hər hansı, hər bir.

[Molla deyir:] *O, hələm-hələm adamların gözünə görünməz.*

"M. N. lətif."

**HƏLİM**[1] *sif. [ər.]* 1. Xasiyyətcə, təbiətcə yumşaq (adam haqqında). *Həlim adam.*

*Məkrli qadındı, gülçöhrə qızdı,*
*Həlimdi, kövrəkdi, sərtdi, quduzdu...*

M. Araz.

**HƏLİM**[2] *is. [ər.]* İçərisində düyü və s. qaynadılması nəticəsində hasil olan qəliz su. *Süzülmüş düyünün üstünə ılıq su gəzdirməklə onu yuyurlar ki, həlimi getsin.*

**HƏLİMAŞI** *is.* Tamamilə həll olub həlməşik hala gələnədək suda bişirilən ət və buğdadan ibarət, adətən səhər tezdən yeyilən horra.

**HƏLİMLİK** *is.* 1. Yumşaqlıq (xasiyyətcə, təbiətcə).

*Cahıllıqda həlimlik, qocalıqda səlimlik.*

(Ata. sözü).

2. **Həlimliklə** şəklində *zərf* – yumşaqlıqla, mülayimliklə, xoş dillə, xoş rəftarla, həlimanə. *Həlimliklə rəftar etmək.*

**HƏLLƏM-QƏLLƏM** *sif. dan.* 1. Cüvəllağı, fırıldaq, haramzadə, cəncəl. [Xan Kazıma:] *Ay gədə, sən çox hələm-qəlləm adama oxşayırsan, .. xatanı məndən sov.*

Çəmənzəminli.

2. Qarışıq, dolaşıq.

[Gəray ağa:] *Bilirsən, bəydadaş, işlər necə həlləm-qəlləmdir?*

S. Rəhimov.

*Məktubun sonunda mənə tapşırır ki, o lotulara deyim:– Həlləm-qəlləm işlərdən əl çəkməsələr, hamısını adbaad yazacaq.*

"Kirpi".

**HƏM** *bağl. [fars.]* 1. Üstəlik, dəxi, ...da (də).

*Fələk, bari cəfalar eyləyib, sən həm qəm artırma,*
*Əlindən gəlmədisə əhli-dərdə çarəsaz olmaq.*

S. Ə. Şirvani.

*Qəzetin yazmağına görə, bu növ şəxslər Naxçıvan fəqarəsində həm olublar.*

N. Vəzirov.

2. Təkrar edilərək işləndikdə həmcins cümlə üzvlərini bir-birinə bağlayır.

*Həyat həm gülmək, həm ağlamaqdır;*
*Lakin daha xoşdur döyüş çağları..*

M. Müşfiq.

**HƏMAĞUŞ** *zərf [fars.]* Bir-birini qucaqlamış halda, qucaqlaşaraq. ■ **Həmağuş olmaq** – bir-birini qucaqlamaq, qucaqlaşmaq.

*Vaqifi-pürmöhnət çox çəkib həsrət,*
*Ta səninlə xəlvət ola həmağuş.*

M. P. Vaqif.

**HƏMAHƏNG** *sif.* və *zərf [fars.]* Bir-birinə uyan, uyğun (səslər, rənglər və s. haqqında). *Həmahəng səslər. ..Oynayanlar kütləsinin həmahəng hərəkəti ilə* [Mirzağa] *da irəli hərəkət edirdi.*

S. Hüseyn.

■ **Həmahəng olmaq** – bir-birinə uyğun olmaq, müvafiq olmaq, uymaq. *Dərin bir sükut ətrafi bürüyərək kainatla həmahəng olmuşdu.*

Çəmənzəminli.

[Əlikram Hidayətə:] *Ay sağ ol, gərək yaradıcılıqla şəxsiyyət, amal həmahəng olsun.*

B. Bayramov.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| **ა** | a | ან | **მ** | m | მან | **ღ** | ğ | ღან |
| **ბ** | b | ბან | **ნ** | n | ნარ | **ყ** | ğ* | ყარ |
| **გ** | q | გან | **ო** | o | ონ | **შ** | ş | შინ |
| **დ** | d | დონ | **პ** | p* | პარ | **ჩ** | ç | ჩინ |
| **ე** | e | ენ | **ჟ** | j | ჟან | **ც** | ≈ ts* | ცან |
| **ვ** | v | ვინ | **რ** | r | რაე | **ძ** | ≈ dz | ძილ |
| **ზ** | z | ზენ | **ს** | s | სან | **წ** | ≈ ts | წილ |
| **თ** | t | თან | **ტ** | t* | ტარ | **ჭ** | ≈ tç | ჭარ |
| **ი** | i | ინ | **უ** | u | უნ | **ხ** | x | ხან |
| **კ** | k* | კან | **ფ** | p | ფარ | **ჯ** | c | ჯან |
| **ლ** | l | ლას | **ქ** | k | ქან | **ჰ** | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

## ზაფხულის არდადეგები (Zapxulis ardadeqebi) Yay tətili

**ზაფხული არა მხოლოდ სიცხეა ეს არის თავისუფლების დრო.** (Zapxuli ara mxolod sitsxea es aris tavisuplebis dro.) **- Yay yalnız istilər deyil, bu, azadlıq mövsümüdür.**

**ზაფხული გვახსენებს, როგორი მშვენიერი შეიძლება იყოს უბრალოება.** (Zapxuli qvaxsenebs, roqor mşvenieri şeidzleba iğos ubralobeba.) **- Yay bizə xatırladır ki, sadəlik necə gözəl ola bilər.**

**ეს დროა დასვენებისთვის, ბუნებასთან ურთიერთობისთვის.** (Es droa dasvenebistvis, bunebastan urtiertobistvis.) **- Bu, dincəlmək və təbiətlə təmas qurmaq üçün zamanıdır.**

**მოსწავლეებისთვის არდადეგები შესანიშნავი შესაძლებლობაა.** (Mostsavleebistvis ardadeqebi şesanişnavi şesadzlebloba.) **- Şagirdlər üçün tətil əla bir fürsətdir.**

**დასვენება აუცილებელია გონების განახლებისთვის.** (Dasveneba autsilebelia qonebis qanaxlebistvis.) **- İstirahət beyinin yenilənməsi üçün vacibdir.**

**მაგრამ არდადეგები არ ნიშნავს უსაქმურობას.** (Maqram ardadeqebi ar nişnavs usakmurobas.) **- Amma tətil tənbəllik demək deyil.**

**სწორია, მეტი ძილი და გართობა ყველას გვინდია,** (Stsoria, meti dzili da qartoba ğvelas qvindia.) **- Doğrudur, daha çox yatmaq və əylənmək hər kəsin arzusudur,**

**მაგრამ ეს დრო შეიძლება ვაქციოთ თვითგანვითარებად.** (Maqram es dro şeidzleba vaktsiot tvitqanvitarebad.) **- Amma bu vaxtdan şəxsi inkişaf üçün də istifadə edə bilərik.**

**წიგნების კითხვა, სპორტი, ხატვა ან ახალი უნარების სწავლა ეს ყველაფერი არდადეგებს საინტერესოს და ღირებულს გახდის.** (Tsiqnebis kitxva, sporti, xatva an axali unarebis stsavla, Es ğvelaperi ardadeqebs sainteresos da ğirebulas qaxdis.) **- Kitab oxumaq, idman, rəsm çəkmək və ya yeni bacarıqlar öyrənmək, bütün bunlar tətili maraqlı və dəyərli edər.**

**მნიშვნელოვანია, რომ ზაფხული დაგვამახსოვრდეს არა მხოლოდ გართობით,** (Mnişvnelovania, rom zapxuli daqvamaxsovrdes ara mxolod qartobit,) **- Vacibdir ki, yay yalnız əyləncə ilə yox,**

**არამედ იმითაც, თუ როგორ ვიზრუნეთ საკუთარ თავზე და მომავალზე.** (Aramed imitats, tu roqor vizrunet sakutar tavze da momavlze.) **- Həm də özümüzə və gələcəyimizə necə qayğı göstərdiyimizlə xatırlansın.**

*Mövqe*

# Ailə tərbiyəsi

Ailə cəmiyyətin müqqədəs özəyidir. Ailə həyatda bir-birini sevən, bir-birinə hörmət və ehtiram bəsləyən iki şəxsin birliyindən yaranır. Ailənin övladları dünyaya göz açanda ailənin möhkəmlənməsinə səbəb olur. Deməli, ailə quran hər bir kəs, gələcəkdə necə övlad tərbiyə edəcəyi barədə əvvəlcədən düşünməlidir.

Ukraynada xalq mahnısında deyilir ki, ölümdən, qocalıb gücdən düşməkdən qorxmaq lazım deyil, pis övladdan qorxmaq lazımdır. Pis övladı böyüdüb cinayətlər törətmək üçün cəmiyyət adlanan ümmana atmaq olmaz.

Deyirlər, dünyaya uşaq gətirən gənc bir ana körpə balasını necə tərbiyə etmək üçün məşhur bir pedaqoqun yanına gedir, məsləhət almaq istəyir. Pedaqoq uşağın yaşını soruşur. Ana körpəsini üç gündür dünyaya gətirdiyini deyir. Pedaqoq gənc ananın üzünə baxıb deyir, "Siz artıq tərbiyəyə üç gün gecikmisiniz". Yəni uşağın tərbiyəsinə doğulduğu saatdan başlamaq lazımdır.

Ailə quran hər bir gənc ata və ana ilk günlərdən ailənin şərəf və ləyaqətini öz üzərinə götürməlidirlər. Yeni qurulan ailənin sevinci və qayğıları var. Bu sevinci və qayğını hər iki gənc başdan düşünüb dərk etməlidir.

Bir var mənbə, bir də var mənsəb - bunlar olmasa, dəniz olmaz. Hər uşağın təlim - tərbiyəsi ailədən başlayır. Uşaqların tərbiyə olunmasında tərbiyəçinin böyük rolu vardır. Ana uşağı bizə dost da eləyə bilər, düşmən də. Hər bir ailənin mənbəyi anadır. O, həyatda necədirsə, tərbiyə elədiyi qızı da elə gəlin olar. Ana qızına başa salmalıdır: qızım mən sənin bioloji ananam. Getdiyin ailədə olan ana məni, ata isə atanı əvəz edəcək. Bizə etdiyin hörməti onlara elə, onda sənin ailən nümunəvi ailə olacaq. Tərbiyə ana qucağından başlayır. Hər deyilən kəlmə uşağın şəxsiyyətini formalaşdırır.

19 dekabr 2006-cı il tarixində "İ" telekanalda "Aktual" verlişini diqqətlə izləyirdim, verilişdə olan maraqlı söhbətlə ailə tərbiyəsində insanları maarifləndirmək qabiliyyəti çox yüksək səviyyədə qurulmuşdu. Gəlin açıq etiraf edək. Hazırda telekanallarda belə verilişlərin sayı azalıb, lakin "şou" verlişləri çoxalıb.

Bu baxımlı kanalda iştirak edən qonaqlardan bir nəfər (adı yadımda deyil) ailəni bir yanar ocaqla əlaqələndirdi. O, söhbətinə belə başladı: "Yanar ocaqda üç ocaq daşı olur. Bu daşların üstünə qazan qoyub qaynatmaq olar. Əgər iki daşın üstünə qazan qoysaq, dönər, dörd daş qoysaq ocağın yanmağı çətin olar...

Bu üç daş ailə simvolunu əks etdirir. Həmin daşlardan biri ata, biri ana, o biri isə övladdır. Bu üçlük arasında səmimiyyət olmasa, el üçün dəyərli övladlar böyütmək və cəmiyyətə layiqli insanlar yetişdirmək çətin olar.

Alimlər müəyyən ediblər ki, uşaqların şəxsiyyət kimi formalaşmasında ailənin rolu əvəzedilməzdir. Hər bir şəxsin sonrakı taleyi, həyatda tutacağı mövqe ailə tərbiyəsindən bilavasitə asılıdır.

İnsan doğulduğu gündən ömrünün sonuna kimi tərbiyəvi təsirlərin əhatəsində yaşayır. Bunun üçün valideynlər uşağı ilk gündən elə tərbiyə etməlidir ki, onun hansı yaşındasa yenidən tərbiyəsinə ehtiyac qalmasın. O, cəmiyyət üçün faydalı adam kimi böyüsün, ailə, kollektiv, ümumiyyətlə, xalq üçün ağır yükə çevrilməsin.

Valideynlər yaxşı olar ki, ailə tərbiyəsinin psixoloqiyasına və pedaqoqikasına aid telekanallarda olan maarifləndirici verilişlərdən, qəzet və jurnallarda olan məqalələrdən, dünyagörüşlü ağsaqqallardan, ağbirçəklərin müdrik söhbətlərindən və tərbiyəyə aid dərc olunan kitablardan dəyərlənsinlər.

Mən uzun illər məktəbdə tərbiyəvi işlər üzrə (təşkilatçı) direktor müavini işləmişəm. İşlədiyim illər ərzində dəfələrlə məktəbdə nümunəvi valideynlərlə şagirdlərin görüşünü təşkil edərdim, valideynlərin maraqlı çıxışları şagirdləri həmin ab - hava üstə kökləyərdi. Şagirdlər həmin ailələrin tərbiyəsini özlərinə örnək kimi qəbul etmişdilər. Hal-hazırda o, şagirdlərin ailələri də kənddə nümunəvi ailədir. Məktəbdə belə tədbirlərin keçirilməsi şagirdlərin tərbiyəsinə əhəmiyyətli təsir edir.



**Suddarxan Kazımov**

*HEKAYƏ*

# Xəyanət

Yay ayları olanda Məsim kişinin iş-gücü birə beş artırdı. O, yaşadığı kəndin yaxınlığındakı Keçəldağın ətəyində yerləşən biçənək sahəsini neçə illər idi ki, icarəyə götürmüşdü. Biçənək suvarılmırdı, yağıntının hesabına Məsim kişi həmin sahədən ildə bir-iki dəfə ot biçib, on baş mal-qarasını qışdan yaza sağ-salamat çıxarırdı. İyun ayının axırları idi, bu il yağıntı çox olduğuna görə sahədə ot çox yaxşı gəlmişdi. Kişi Allaha dualar oxuyub səhər tezdən atı arabaya qoşub biçənəyə getdi və 5-6 gün idi ki, o, biçinə başlamışdı.

Məsim kişi bu gün daha tez gəlmişdi ot biçməyə, ot qalın olduğuna görə kefi kök idi, sevincindən kərəntini daha həvəslə çəkir, hərdən dodaqaltı zümzümə də edirdi. O, kərənti çəkən zaman tez yorulurdu, ot biçmək hər adamın işi deyildi, ancaq onun az yaşı da yox idi, 60-65 yaşlarında ortaboylu, dolubədənli, zəhmətkeş, nurani bir kişi idi. Bir qədər ot çaldıqdan sonra bir az dincini alıb su içmək istədi. Günlüklü kepqasını başından çıxartdı, tərini sildi. Ağacın kölgəsində əylədiyi arabanın yanına gəlib gətirdiyi sudan başına qaldıran zaman gözü Keçəldağa sataşdı. Dağın ortasına yaxın bir hündür ağacın üzərində yüzlərlə yırtıcı quş dövrə vurub güclü səs çıxarırdılar. Kişi bundan şübhələndi, fikirləşdi ki, yəqin quşlar orada leş görüblər. Keçəldağ uca idi, bəzi yerlərində ağaclar sıx olsa da, bəzi yerlərində heç bir dənə də ağac olmadığına görə qədimdən yerli əhali ona Keçəldağ deyirdi. Orada yırtıcı heyvanların olduğunu da söyləyirdilər. Ona görə də Məsim kişi biçənəyə gələndə hər dəfə atasından qalma qoşalüləni özü ilə gətirirdi, baxmayaraq neçə illər idi ki, biçin vaxtı buralarda olurdu, ancaq bir dəfə də olsun vəhşi heyvana rast gəlməmişdi. Hər halda ehtiyat edib biçin zamanı tüfəngi yanında gəzdirirdi. Yırtıcı quşların palıd ağacının başının üzərində dövrə vurması onun marağını xeyli artırdı. Kərəntini bir yana qoyub biçənəkdən uzaqlaşdı. Atı minib dağın döşünə doğru irəliləməyə başladı. Palıd ağacının yanına bir az qalmış Məsim kişi tüfəngdən atəş açdı və həmin an bütün yırtıcı quşlar dövrələrini pozub oradan uzaqlaşdılar. At da yorulmuşdu, dağa güclə dırmanırdı. Məsim kişi ağaca yaxınlaşanda ağacın dibində bir qaraltı gördü, dərhal atın başını çəkdi. Kişi həyəcan keçirib bir az qorxsa da, ancaq çiynindəki tüfəng elə bil ona qol-qanad verib ürəkləndirirdi. Bir qədər də yaxınlaşanda qaraltının insan olduğunu görüb diqqətlə oğrun-oğrun ətrafa göz gəzdirdi, heç kimin olmadığına əmin olduqdan sonra atdan endi. O qaraltı üz-gözünü tük basmış 30-35 yaşlarında bir oğlan idi. O çabalayırdı. Hər iki ayağının dizdən aşağı hissəsinin ətini quşlar didmişdilər. Məsim kişi özünü itirmədən əyilib onun bütün bədənini əlləri ilə yoxladı, heç bir yerində qırıq, yara yox idi. Ancaq nəfəsi işləyirdi. Kişi onu danışdırmaq üçün çox çalışdı, onun əl hərəkətlərindən hiss etdi ki, su istəyir. Vaxt itirmədən atı minib geri döndü, arabadakı sudan və yeməkdən gətirdi. Oğlanın başını qaldırıb ağzına bir-iki qurtum su tökdü, bir-iki dəqiqədən sonra ona yenidən su verdi. Bir qədər fasilədən sonra oğlan gözlərini açdı. Danışmasa da, Məsim kişi ona yavaş-yavaş yemək yedizdirdi. Oğlan çox taqətsiz idi, danışa bilmirdi. Məsim kişi özünü təqdim edib buraların qoruqçusu olduğunu bildirdi. „Heç qorxub çəkinmə, oğlum" - dedi - buralara necə gəldiyindən, kimlərdən olduğundan danış, sənə kömək edəcəyəm. Oğlan əvvəlcə qırıq-qırıq danışırdı. Məsim kişi ləhcəsindən anladı ki, oğlan bura adamı deyil, ölkənin cənub bölgəsindəndir. Məsim kişi oğlanı bir daha dilə gətirmək üçün sorğu-suala tutub adını soruşdu. Ona canıyananlıqla, həlim danışığı ilə müraciət etdi, özünü yaxın bir adam kimi göstərdi. Dedi-„oğlum, buralara təkmi gəlmisən, yoldaşların varmı, bəlkə sənə xəyanət edib şimal bölgəsinin ucu-bucağı bəlli olmayan, qurd-quşla dolu olan bu meşəsinə atıb gediblər. Həyatda hər şey ola bilər, başına gələnlərin ucundan - qulağından yadına düşənlərdən çəkinmədən danış."

— Adım Qurbandır, dayı. Düz 6 aya yaxındır ki, buralarda-bu uca dağın ortasında tək-tənha yaşayıram. Mənə tənhalıq, insan olmayan bir yer lazım idi, onu da bu sıx ağaclar arasında tapmışam. İlk günlər belə taqətsiz deyildim, özüm sərbəst gəzirdim. Bax, görürsənmi, o ağacın dibinə yaxın yeri də qazıb gecələmək üçün özümə yer düzəltmişəm" - dedi.

Məsim kişi maraq dolu baxışlarla qocaman palıd ağacının dibinə baxdı. Gördü ki, doğrudan da ora əməlli-başlı qazılıb, üstü də qurumuş ağac budaqları ilə möhkəm-möhkəm örtülüb və ora girmək üçün də bir balaca yan tərəfdən yer də qoyulub.

— "İlk günlər bura gələndə iki gün ac qaldım,-deyə Qurban söhbətini davam etdirdi. -Sonra meşəni gəzən zaman çoxlu cır qoz, zoğal, alma ağaclarına rast gəldim. Yerə tökülmüş meyvələrdən toplayıb düzəltdiyim "sığınacağıma" gətirirdim. Onlardan gündə 3-4 dənə yeyib günlərimi keçirirdim. Çalışırdım ki, təki heç kim məni görməsin və ölənədək tənha qalım. Tutduğum işdən peşman olub daima vicdan əzabı çəkirəm, son günlərimin nə vaxt bitəcəyini gözləyirəm. Onu da deyim ki, vətənimdən, isti yuvamdan dörd ilə yaxındır ki, ayrılmışam''.

Məsim kişi özünü saxlaya bilmədi. -Oğlum, nə iş görmüsən ki, ondan ötrü özünə ölüm diləyib vətənindən didərgin düşmüsən. Gördüyün zərərli işi, buraxdığın səhvi məsləhətlə həll etmək olmazmı? Hər şeyin bir çıxış yolu var. Bəlkə əlindən xəta çıxıb, bəlkə adam öldürmüsən, qatilsən? Özünü ələ al.

— "Yox dayı, mən qatil deyiləm, kaş qatil olaydım. İndiki düşüncəmə görə mənim gördüyüm işin heç bir çıxış yolu yoxdur, çıxış yolu yalnız həyatda izimin itməsidir. Bundan sonra yaşasam da heç kimin üzünə baxa bilmərəm, daima başıaşağı gəzməliyəm".

Qurbanın danışdıqlarını diqqətlə dinləyən Məsim kişinin bu əhvalata marağı artmışdı, səbirsizliklə sirli Qurbanın söhbətinin sonunu gözləyib, gördüyü işi öyrənməyə çalışırdı.

— Məsim dayı, uşaqlıqdan bir yerdə böyüyüb, bir yerdə gəzib, bir boşqabda xörək yediyimiz bir dostuma, onun ailəsinə qarşı bağışlanmaz xəyanət etmişəm. Dostumun adı İzzət idi. Eyni yaşda idik, dostluğumuza hamı qibtə edirdi. İzzətin el-obada hörməti daha böyük idi. O, ali təhsil alıb mühəndis oldu, rayonda tikinti idarəsində işləyirdi, dolanışığı da pis deyildi. Həyat yoldaşı Sara xanım da texnikumu bitirmişdi. Kəndimizdəki tibb məntəqəsində çalışırdı. O da həyat yoldaşı kimi nümunəvi başıaşağı, mədəni bir qadın idi. Mən ali təhsil almadım, ancaq bənna kimi tanınmışdım, həyat yoldaşım da evdar qadın idi. Mənim üç, dostum İzzətin iki uşağı var idi. Qonşu olmasaq da evlərimiz bir-birinə yaxın idi. İnsafən İzzət məndən daha imkanlı idi. Yeri düşəndə ailəmizə təmənnasız yardımlar edir, bayramlarda öz uşaqlarına təzə paltar alanda bizimkiləri də yadından çıxartmırdı. Onun sadiq dost kimi mənə və ailəmə etdiyi yaxşılıqları sadalamaqla qurtaran deyil.

Son zamanlar İzzət işlədiyi tikinti idarəsində ona qarşı dalbadal haqsızlıqlar və təzyiqlər olduğuna görə həmin gün işdən qayıdarkən yolda özünü pis hiss edərək öz şəxsi maşını ilə qəza törətmiş, həmin qəzadan bir gün sonra dünyasını dəyişmişdi. Başsız qalan ailəyə həyat yoldaşımla mən axşam-sabah daha çox baş çəkirdik.

Bir qədər danışdıqdan sonra Qurban söhbətinə ara verib susdu. „-Məsim dayı, olarsa, arxasını danışmayım, utanıram, xəcalət təri məni basır, danışsam mənə nifrət edib əlindəki tüfənglə bədənimi deşik-deşik edəcəksən."-dedi.

Araya xeyli sükut çökdü, sükutu bu dəfə də Məsim kişi pozdu. „- Oğlum, əlimdə tüfəng olmasına baxmayaraq ömrümdə heç bir canlıya atəş açmamışam, mabədini danış, məndən qorxub çəkinmə, əksinə bəlkə köməyim dəydi."

„Dostumun ölümündən iki il vaxt keçmişdi."-deyə Qurban sözə yenidən başladı. „Günlərin bir günü ürəyimdə İzzətin xanımı Saraya qarşı məndə ilıq hisslər oyandı, onun gözəlliyi məni valeh etmişdi. Elə bil gözlərim kor, qəlbim daşlaşmışdı. Dostluğumuzu, qonşuluğumuzu tamamilə unutmağa başlayırdım. Sara xanıma qarşı hisslər qəlbimə hakim kəsilib məni rahat buraxmırdı. Aylarla, günlərlə fürsət axtarırdım ki, ailələrimiz arasındakı şirinliyin və gediş-gəlişin yaxşı olmasından istifadə edib ürəyimi ona boşaldım.

Onu da deyim ki, dəfələrlə uşağımızın hansınınsa hərarəti gecə vaxtlarında yüksələndə tibb bacısı kimi Saranı çağırırdıq. O, uşağa yardım edib hər şeyi yoluna qoyurdu. Deyirdi ki, gecənin nə vaxtı olmasından asılı olmayaraq uşaqlarımızın hansında nasazlıq hiss edən kimi mənə müraciət edin. Belə şeydən ötrü utanıb xəcalət çəkmək lazım deyil. Əsas odur ki, uşağın xəstəliyi ağırlaşmasın. Kimliyindən asılı olmayaraq mən el-oba üçün həmişə bacardığım qədər vəzifəmi yerinə yetirməyə hazıram.

*(Davamı növbəti sayımızda)*



**Sərxan Səfərov,**
**Qardabani,**
**Qaracalar kəndi.**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**20 iyun**

• 1782 — ABŞ-nin mühüm dövlət simvolu olan və qartalı əks etdirən Birləşmiş Ştatların Böyük möhürü (ing. Great Seal of the United States) ABŞ Konqresi tərəfindən təsdiqlənib.

•1991— Şərqi və Qərbi Almaniyanın 3 oktyabr 1990-cı ildə birləşməsidən sonra, Bundestaq, birləşmiş Almaniyanın paytaxtını Qərbi Almaniyanın paytaxtı olan Bonn şəhərindən Berlin şəhərinə köçürülməsi barədə qərar qəbul edib.

**21 iyun**

•1813 — İngilis sərkərdə Hersoq Vellinqtonun başçılıq etdiyi birləşmiş İngiltərə, İspaniya və Portuqaliya qoşunları Napoleon Bonapartı İspaniyanın şimalında yerləşən Viktoriya şəhərinin yaxınlığında məğlub ediblər. Nəticədə, 1808-ci ildə başlayan və "Pireney müharibələri" adlanan Napoleonun İspaniya işğalı sona çatıb.

•1844 — General Şvartsın başçılıq etdiyi rus qoşunları Azərbaycan və Dağıstan ərazilərində yerləşən İlisu sultanlığının paytaxtı İlisu qəsəbəsini ələ keçiriblər. Nəticədə, sultanlıq Rusiya imperiyası tərəfindən ilhaq edilib.

•Beynəlxalq Humanitar və Etika Fondunun təşəbbüsü ilə 1986-cı ildə Osloda keçirilən Ümumdünya Konqres zamanı 21 iyun Ümumdünya Humanizm Günü olaraq təsdiq olunub.

**22 iyun**

•1889 — Kansler Otto fon Bismarkın təşəbbüsü ilə Almaniya Avropada qocalıq pensiyasını tətbiq edən ilk dövlət olub.

•1941 — Nasist Almaniyası səhər saat 4-də müharibə elan etmədən, SSRİ-yə qarşı "Barbarossa" hərbi əməliyyatına başlayıb. Beləliklə, İkinci Dünya Müharibəsinin şərq cəbhəsi açılıb. "Böyük Vətən Müharibəsi" adı ilə tarixə düşən sovet-alman müharibəsi 4 il sonra, 1945-ci ilin mayında sovet ordusunun qələbəsi ilə nəticələnib.

•Xorvatiya antifaşist mübarizə gününü qeyd edir. Bu tarix 22 iyun 1941-ci ildə Sisak şəhərində Mehvər dövlətlərinə qarşı ilk partizan dəstəsinin yaradılması ilə bağlıdır.

**23 iyun**

•1758 — Yeddiillik müharibə: Şahzadə Ferdinandın başçılıq etdiyi birləşmiş Prussiya, Hanover, Hessen və Braunşveyq ordusu Almaniyanın Krefeld şəhəri yaxınlığında Qraf Klermonun başçılıq etdiyi fransız ordusunu məğlub edib.

•1998 — ABŞ-nin Pitsburq şəhərində neyrocərrahlar tibb tarixində ilk dəfə süni şəkildə yetişdirilmiş beyin qabığı hüceyrələrinin insana köçürülməsini həyata keçiriblər.

•Bu gün 1919-cu ildə Von döyüşündə Estoniya qoşunlarının Landesver (Baltik alman milisləri) üzərində əldə etdiyi qələbə qeyd edilir.

**24 iyun**

•1793 — Fransız inqilabı nəticəsində hakimiyyətə gələn Konvent hökuməti ölkənin ilk demokratik konstitusiyasını qəbul edib. Fransa respublika elan edilib.

•1936 — **Revaz Amaşukeli, gürcü şair, anadan olub.**

•2008 — ABŞ-nin kosmik agentliyi "NASA" "Feniks" kosmik aparatı tərəfindən Mars planetində kəşf edilən ağ ləkələrin buz olduğunu təsdiqləyib.

**25 iyun**

• 1950 — Şimali Koreya qoşunları Cənubi Koreyaya qarşı ildırımsürətli əməliyyat keçirib. Bir tərəfdən Çinin və SSRİ-nin, qarşı tərəfdən isə ABŞ-nin rəhbərlik etdiyi BMT qoşunlarının daxil olduğu Koreya müharibəsi 1953-cü ilə qədər davam edib və İkinci Dünya Müharibəsindən sonra baş vermiş ən qanlı və nəticəsiz müharibə olub.

•1978 — Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Nazim Əliverdibəyovun "Cırtdan" operasının premyerası keçirilib.

•1980 — ***Həsən Seyidbəyli, Azərbaycan yazıçısı, vəfat edib.***

**26 iyun**

•2024 — Gürcüstanın debütant futbol komandası Avro-2024-də Portuqaliyanı 2:0 hesabı ilə məğlub edərək 1/8 finala yüksəlib.

•**Madaqasqar — Müstəqillik Günü qeyd edilir.**

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## REVAZ AMAŞUKELİ



***Revaz (Rezo) Amaşukeli 24 iyun 1936 - cı ildə Kutaisidə anadan olub.*** O, 1960- cı ildə Tbilisi Dövlət Universitetinin Filologiya fakültəsini bitirib və ilk şeirləri 1957 - ci ildən nəşr olunub. "Tsiskari", "Mnatobi", "Literaturnaya Qruziya" jurnallarında çalışıb. O, Gürcüstan Yazıçılar İttifaqının katibi (1986), Rustaveli Cəmiyyəti sədrinin birinci müavini (1988–1989-cu illər), 1992-ci ildən Gürcüstan mədəniyyət nazirinin müavini olub.

Amaşukeli poeziyanın geniş spektrini əhatə edib: qayğıdolu şeirlər, vətənpərvərlik mövzulu poemalar, Novruz bayramının atmosferini yaşadan üçlük əsərlər tərtib edib. Onun tanınmış nümunələri arasında "VIA DOLOROSA", "Aliluya", "Yeni ilin gecəsi – 1960", "Diağ! Soxumi ari Didgori!", "Tovus", "Yanvar gecəsi və ayın atəşi" və "Kaxetşi" adlı şeirlər var.

1972 - ci ildə şeirləri rus dilində kitab şəklində də çap olunub, "Zahili" poemasına görə 1968 - ci ildə Gürcüstan Yazıçılar Birliyinin mükafatına layiq görülüb. Eyni zamanda 1982 - ci ildə Qalaktion Tabidze adına mükafat, 1996 - cı ildə isə "Şərəf" ordeni alıb.

Amaşukeli aktiv ictimai xadim olub. O, 1986 - cı ildə Gürcüstan Yazıçılar Birliyinin katibi, 1988 - 1989- cu illərdə Şota Rustaveli Cəmiyyəti sədrinin birinci müavini, 1993- cü ildə "Vətəndaş Birliyi" parlament partiyasının sədr müavini kimi fəaliyyət göstərib. 2003- cü ildə Tbilisi şəhərinin fəxri vətəndaşı adına layiq görülüb.

Şeirlərində insan taleyi, vətən, mənəvi dəyərlər və gündəlik həyatın psixologiyasına incəliklə toxunur. Onun əsərlərində həm melanxolik notlar var, həm də fəlsəfi təfəkkür, bu da oxucunu düşündürən və ürəkdən toxunan nümunələr yaradır. Bu məcmuələrin əsl bədii məziyyətləri mürəkkəb, qafiyəsiz misralar və klassik sadəliyi ilə seçilən ənənəvi qafiyəli misralarla müəyyən edilir. Amaşukelinin "Noyabr", "Pirosmani", "Sənə", "Məmlüklər qəbiristanlığı", "Şərq obrazı" və s. şeirlərində vətənpərvərlik motivi özünü göstərir. O, sözləri meditativ formaya çevirir, lirik monoloq şəklində əhval-ruhiyyə yaradırdı. Onun dünyanın sirlərinə dair ifadələri də özünəməxsus idi və bəzən simvolik və alleqorik formalarda da çatdırılırdı.

Revaz Amaşukelinin poeziyası həm klassik dəyərlərə sadiqliyi, həm də müasirliklə uzlaşan dil və obraz zənginliyi sayəsində Azərbaycan, Rusya və Gürcüstan oxucularında geniş rezonans doğurub. Revaz Amaşukeli Gürcüstan poeziyasının zəngin ənənəsini davam etdirən, həm bədii istedada, həm də ictimai xidmətə sahib şairdir. Onun şeirləri bu gün də bir çox nəşrdə, proqramda və poeziya mühazirələrində yer alır, öyrənilir və sevilir.

O, 10 yanvar 2022- ci ildə Tbilisidə 85 yaşında vəfat edib.

## HƏSƏN SEYİDBƏYLİ



***Ssenarist, rejissor, yazıçı, əməkdar incəsənət xadimi, xalq artisti Həsən Seyidbəyli uzun və genişşaxəli yaradıcılıq yolu ilə sənət tariximizdə yer tutub.*** Kinorejissor kimi də, yazıçı kimi də çox uğurlara imza atmış, nailiyyətlər qazanmış Həsən Seyidbəyli yaradıcılığı sevilərək minlərlə insanların diqqətini cəlb etmişdir.

XX əsr Azərbaycan ədəbiyyatının və kino sənətinin görkəmli nümayəndələrindən biridir. O, 22 dekabr 1920-ci ildə Bakıda anadan olmuşdur. Burada 132 saylı şəhər orta məktəbini bitirmiş, 1938-1939-cu illərdə Leninqrad Kino Mühəndisləri İnstitutunda, 1943-1951-ci illərdə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun kinorejissorluq fakültəsində təhsil almışdır. "Azərbaycanfilm" kinostudiyasında kinorejissor, 1963-1980-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi və sədri vəzifəsində işləmişdir. "İmtahan", "Qızıl axtaranlar", "Bağlı qapılar" adlı dram əsərləri Azərbaycanda və xaricdə səhnəyə qoyulmuşdur. "Kür sahillərində (1953), "Bizim Astrada" (1956), "Telefonçu qız" (1960) povestləri, "Cəbhədən-cəbhəyə" (1961), "İllər keçir" (1973, İ. Qasımovla birgə), "Tərsanə" (1975), "Çiçək" (1978) romanları, "Dəniz cəsurları sevir" (1954 , "Sən nə üçün yaşayırsan" (1959, hər ikisi İ. Qasımovla birgə) pyesləri müasirlərinin əməyindən mənəvi-əxlaqi saflığından bəhs edir. "Uzaq sahillərdə" (1954, İ. Qasımovla birgə) romanı Sovet İttifaqı Qəhrəmanı M.Hüseynzadəyə həsr olunmuşdur.

"Kür sahillərində", "Cəbhədən-cəbhəyə", "İllər keçir", "Tərsanə", "Çiçək" kimi romanlarında müharibə dövrünün və sonrakı illərin insan talelərí, vətənə bağlılıq, əmək və əxlaq dəyərləri bədii şəkildə əks olunmuşdur. Həmçinin dramaturgiya sahəsində də çalışmış, "İmtahan", "Qızıl axtaranlar", "Bağlı qapılar" kimi pyeslər yazmış və bu əsərlər səhnədə uğurla tamaşaya qoyulmuşdur.

H. Seyidbəyli Azərbaycan kinosunda da dərin iz qoymuş sənətkarlardandır. O, "Telefonçu qız", "Bizim Cəbiş müəllim", "Nəsimi" kimi məşhur filmlərin ssenari müəllifi olmuş, "Nəsimi" filmi ilə böyük şöhrət qazanmışdır. Bu ekran əsəri onun rejissorluq istedadını və tarixə yanaşma tərzini aydın şəkildə göstərir.

Həsən Seyidbəyli həm də ictimai fəaliyyətlə məşğul olmuş, uzun illər Azərbaycan Kinematoqrafçılar İttifaqına rəhbərlik etmişdir. O, "Azərbaycan SSR xalq artisti", "Əməkdar incəsənət xadimi" kimi fəxri adlara layiq görülmüş, bir sıra orden və medallarla təltif olunmuşdur. 1980-ci ildə vəfat etmiş yazıçının zəngin irsi bu gün də Azərbaycan mədəniyyətinin dəyərli bir hissəsidir.

## MADAQASKAR

Madaqaskar Hind okeanında, Afrika qitəsinin şərq sahilində qərar tutmuş eyniadlı adada və kiçik adalar qrupunda yerləşən dövlətdir. Ölkənin paytaxtı və böyük şəhəri adanın mərkəzində yerləşən Antananarivudur. Rəsmi dilləri fransız və Avstroneziya dil ailəsinə aid Malaqasi dilidir. Ölkənin ərazisi 587040 km²-dir. Əhalisinin sayı 24,2 milyon nəfərdir.

**Tarixi:** Yeni eranın 200-500-cü illərində Madaqaskar adasına Avstroneziya xalqları köçüb. Eyni vaxtda adaya Mozambik boğazı üzərindən Afrika kökənli bantu qəbilələri köçüblər. VII əsrdə ərəblərin adaya gəlməsi ilə Madaqaskar haqqında yazılı mənbələr başlayıb. Adaya "Madaqaskar" adını venesiyalı səyyah Marko Polo qoyub. O, öz qeydlərində həmin adanı "sayısız - hesabsız xəzinələr adası" adlandırıb. Adaya gələn ilk avropalı isə portuqaliyalı dənizçi Dieqo Diaş olub. O, 1500-cü ildə Hindistana gedərkən, yolu azıb və adaya gəlib. Mühüm coğrafi mövqeyə sahib olan adanı avropalılar müstəmləkəyə çevirməyə çalışsalar da, bu, uzun illər ərzində iqlim və eləcə də yerli döyüşkən qəbilələr səbəbilə baş tutmayıb.

XIX əsrdə İngiltərənin dəstəyi ilə bütün adanı birləşdirən Malaqasi və ya başqa adı ilə İmerin krallığı yaranıb. Malaqasi krallığının ən güclü və qəddar hakimi kraliça I Ranavaluna ( 1828-1861-ci illər) olub. I Ranavaluna öz rəqiblərinə qarşı repressiv siyasət aparıb. Kraliçanın hakimiyyəti zamanı avropalı xristian missionerlər ölkədən qovulub, xristianlıq qadağan edilib, avropalı dövlətlərlə ticarətin qadağan edilməsinə görə ölkə limanları bağlanıb. Kraliçanın ölümündən sonra Fransanın Madaqaskara təsiri artıb və nəticədə, 1897-ci ildə ada Fransız müstəmləkə imperiyasının tərkibinə girib.

İkinci Dünya Müharibəsi zamanı, Fransanın nasist Almaniyası qarşısında məğlub olması nəticəsində, Yaponiyanın adanı işğal etməsinin qarşını almaq üçün Böyük Britaniya adaya qoşun yeridib. Ada 1943-cü ildə Şarl de Qollun rəhbərlik etdiyi "Azad Fransa"ya qaytarılıb. Həmin zaman adada müstəqillik uğrunda mübarizə başlayıb. Nəticədə, 26 iyun 1960-cı ildə Madaqaskar öz müstəqilliyini bərpa edib.

**Coğrafiyası:** Adanın ən yüksək nöqtəsi Tsaratanana dağ silsiləsində yerləşən sönmüş Marumukutru vulkanıdır (2876 m). Adanın mərkəzi və şərq hissəsini qərbə doğru yumşaq meylli və şərq sahillərinin düzənliklərinə dik enən yüksək yayla tutur. Dağlar minerallar və metallarla zəngindir: qızıl, mis, dəmir; geniş sahil düzənlikləri çox məhsuldardır. Madaqaskarın ən böyük gölü Alautredir (sahəsi 200 km²-ə qədər). Digər gölləri İtasi, İhutridir.

**İqtisadiyyatı:** Madaqaskarın iqtisadi artımının əsas mənbələri turizm, toxuculuq və yüngül sənaye mallarının ixracı, kənd təsərrüfatı məhsullarının ixracı və faydalı qazıntıların ixracıdır. Ada ixrac üçün kömür, ilmenit və nikel istehsal edir.



Respublikanın cənubunda iki böyük neft yatağı aşkar edilib. Antananarivu və Antsirabe ətrafında yerləşən azad ticarət zonaları ABŞ və Avropa ilə ticarəti hədəfləyir.

**Dövlət quruluşu:** Madaqaskar prezident respublikasıdır. Ölkənin hazırki prezidenti Andri Razuelinadır. Madaqaskar parlamenti ikipalatalıdır: 127 deputatdan ibarət Milli Assambleya əhali tərəfindən 4 il müddətinə seçilir, Senatın (100 yer) üçdə ikisi əyalət məclislərinin nümayəndələrindən ibarətdir, üçdə biri isə prezident tərəfindən təyin olunur.

İDMAN İDMAN

## SƏRBƏST GÜLƏŞ ÜZRƏ AZƏRBAYCAN MİLLİSİ AVROPA ÇEMPİONU OLUB




***Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən U17 Avropa çempionatı sona çatıb.***

Sərbəst güləş üzrə 45, 51, 60, 71 və 92 kq çəkidə qaliblər müəyyənləşib.

Ömər Usubov (45 kq) bürünc medal görüşündə ermənistanlı Aren Piruzyana 2:12 hesabıyla məğlub olaraq, 5-ci yerlə kifayətlənib.

Ramal Mirhüseynov (51 kq) təsəllieverici görüşdə türkiyəli Buğra Kavakı çətinliklə də olsa, üstələməyi bacarıb – 2:1. Soydaşımız bürünc medal uğrunda qarşılaşmada isə ermənistanlı Vahan Azaryana gücünü göstərib – 10:6.

Həsən Həsənov (60 kq) finalda ukraynalı Zorab Aloyevlə gərgin keçən mübarizədə minimal fərqlə (4:5) uduzub və gümüş medalı boynundan asıb.

Səid Paşayev (92 kq) isə həlledici görüşdə rusiyalı Abdurazak Şabanovla üz-üzə gəlib. Nəfəskəsən mübarizədən 6:5 hesablı qələbəylə ayrılan Paşayev növbəti dəfə Avropa çempionu olub. Maraqlıdır ki, ötən il yunan-Roma güləşində qitənin ən güclüsü ünvanına sahib çıxan Səid bu dəfə eyni uğura sərbəst güləşdə imza atıb.

Beləliklə, milli Avropa çempionatını 3 qızıl, 1 gümüş və 2 bürünc medalla başa vurub. Bu nəticəylə 151 xal toplayan Azərbaycan millisi növbəti dəfə Avropa çempionu olub. Ukrayna 144 xalla ikinci, Gürcüstan isə 116 xalla üçüncü yeri tutub.

Xatırladaq ki, bir gün əvvəl Rəvan Həsənzadə (48 kq) və Ruslan Əlizadə (55 kq) çempion olub, Hakim Tağıyev (110 kq) isə üçüncü yeri tutub.

MƏDƏNİYYƏTLƏRARASI DİALOQ

## MARNEULİDƏ "NOVELLA" FİLMİNİN GÜRCÜ DİLİNDƏKİ VERSİYASI TƏQDİM EDİLİB

***Marneuli Mədəniyyət Evində "Aktual Media" tərəfindən ərsəyə gətirilmiş "Novella" bədii-sənədli filminin gürcü dilindəki versiyasının təqdimat mərasimi baş tutub.***



Tədbirdə Marneulidəki gürcü dilli məktəblərin müəllimləri və şagirdləri, ictimaiyyət nümayəndələri, iş adamları, Marneuli Bələdiyyə Məclisinin üzvləri və Diplomatik təmsilçiliklərin nümayəndələri iştirak edib.

Natela Əlləzovanın aparıcılığında tədbirin ev sahibi, "Aktual Media"nın təsisçisi və Aktual.ge xəbər portalının direktoru, filmin ideya müəllifi və baş prodüseri İlkin Hüseynov çıxış edərək bildirib ki, "Novella" bədii-sənədli filmi Gürcüstan azərbaycanlılarına qarşı yönəlmiş bir sıra steriotiplərə qarşı ərsəyə gətirilib.

*"Məhz bu səbəbdən "Aktual Media" komandası gənclərimizin uğurlarını geniş ictimaiyyətə tanıtmaq məqsədilə bu filmi ərsəyə gətirdi. Əsas məqsəd stereotipləri dağıtmaq və azərbaycanlıların Gürcüstanda müxtəlif sahələrdə qazandıqları uğurları nümayiş etdirməkdir. Film həm Azərbaycan, həm də gürcü dillərində ərsəyə gətirilib. Gürcü dilində olan versiya nə dublyajla, nə də subtitrlə ərsəyə gətirilməyib – bu, tamamilə orijinal çəkilmiş versiyadır. Filmi hər iki dildə özümüz lentə almışıq. Göstərilən dəstəyə görə hər kəsə təşəkkür edirik",* – deyə qeyd edən İlkin Hüseynov Gürcüstandakı azərbaycanlılar haqqında bu cür sənədli film ilk dəfə "Aktual Media" tərəfindən ərsəyə gətirildiyini bildirib.

Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin əməkdaşı Cavid Məhərrəmov çıxışında istedadlı azərbaycanlı gənclərin tanıdılmasının və onların bu cür nüfuzlu layihələrdə yer almasının vacibliyini vurğulayıb.

*"Gürcüstanda yaşayan azərbaycanlılarla bağlı xoşagəlməz stereotiplərin formalaşmasının qarşısını almaq üçün bu kimi layihələrin həyata keçirilməsi son dərəcə önəmlidir. Bu təşəbbüsə görə 'Aktual Media' komandasına təşəkkür edir və onlara uğurlar arzulayırıq",* – deyə Cavid Məhərrəmov bildirib.

Qeyd edək ki, filmin təqdimatı APEX Developmentin sponsorluğu ilə gerçəkləşib.

## BAŞSAĞLIĞI



Qardabani Bələdiyyəsinin Qaracalar kənd sakinləri Vüqar Məmmədov, Ramin Sofiyev, Arif Qərənzadə, Əli Sofiyev, Sərxan Səfərov, Nazim Qocayev, Qədir Məmmədov və "Gürcüstan" qəzetinin baş redaktoru Xaləddin Yolçuyev el ağsaqqalı, mehriban və səmimi insan

**İsmayıl Oruc oğlu Səfərovun**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə, qohumlarına və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

## YUXA QOXUSU İLƏ AÇILAN SƏHƏR



**Foto E.Şahvələdindir.**

SƏYAHƏT

## LAQODEXİ PARKI QARA QAYA GÖLÜNƏ YENİ MARŞRUT AÇIR



***Laqodexinin qorunan əraziləri 2800 metr hündürlükdə Qara Qaya gölünə yeni cığır açıb.*** Bu, yarpaqlı meşələrdən alp çəmənliklərinə, qayalıqlardan bataqlıqlara qədər müxtəlif mənzərələri və təbiəti özündə əks etdirən Gürcüstanın ən möhtəşəm trekkinq marşrutlarından biridir.

Marşrutun uzunluğu 45 kilometrdir və səyahət 3 gün davam edir. Turistlər gecələmək üçün Meteo sığınacaqlarından (16 çarpayı + çadır sahəsi) və Demidovun Mənzilindən (17 çarpayı + çadır sahəsi) istifadə edə bilərlər.

**Gəzinti planı:**

1-ci gün: Park administrasiyası (550 m) → Meteo (1950 m) — 13 km.

2-ci gün: Meteo → Qara Qaya gölü (2800 m) → Demidovun mənzili (2650 m) - 16 km.

3-cü gün: Dəmidovun mənzili → park administrasiyası - 16 km.

*Vacibdir:* Marşrut sərhəd zonasından keçir, qeydiyyat üçün şəxsiyyət vəsiqəniz olmalıdır.

Mühafizə olunan ərazilərin administrasiyası turların plaWWWnlaşdırılmasına kömək edəcək. Bunun üçün Facebook səhifəsi (**ლაგოდეხის დაცული ტერიტორიები**/ Lagodekhi Protected Areas) vasitəsilə əvvəlcədən əlaqə saxlaya

TƏDBİR

## GÜRCÜSTANDA AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRİN MÜƏLLİMLƏRİNİN İKİNCİ QURULTAYI KEÇİRİLƏCƏK

***Cari ilin 28 iyun tarixində Tbilisidə "Gürcüstanda Azərbaycandilli Məktəblərin Müəllimlərinin II Qurultayı" keçiriləcək.***




Bu barədə "Maarif" təşkilatının direktoru Aygül İsayeva məlumat verib.

O qeyd edib ki, qurultayın məqsədi dövlət qurumlarının diqqətinə azərbaycandilli məktəblərdə yaşanan problemləri və həlli yollarını çatdırmaq, fikir mübadiləsi aparmaq və perspektivləri müəyyən etməkdir.

Panel müzakirələrdə məruzəçilər kadr çatışmazlığı, ana dili, dövlət dili, ikidilli (bilinqual) təhsil sistemi, inklüziv təhsil, dərsliklərdəki problemlər, infrastruktur məsələləri və s. mövzulara toxunacaqlar. Qurultayda azərbaycandilli məktəblərdə dərs deyən müəllimlərlə yanaşı, dövlət qurumlarının, diplomatik korpusların və təhsil sahəsində fəaliyyət göstərən təşkilatların nümayəndələri də iştirak edəcəklər.

Qeyd edək ki, müstəqil Gürcüstanın tarixində müəllimlərin birinci qurultayı 2023-cü ildə təşkil edilmişdir.

## ELAN

"Gürcüstan" qəzetində "Soruşun-cavab verək" adlı hüquq məsləhəti güşəsi fəaliyyət göstərir. Bu guşədə hüququn bütün sahələrinə (İnzibati, Mülki, Cinayət və s.) aid məsələlərlə bağlı sizi maraqlandıran istənilən suala cavab ala bilərsiniz

Guşənin aparıcısı təcrübəli hüquqşünas, Gürcüstan Vəkillər Assosiasiyasının üzvü **Robinzon Levanoviç Papidzedir**.

**Əlaqə telefonu: +995 593 97 85 15;**

**Ünvan:** Tbilisi şəhəri, Tsereteli prospekti, 142, birinci mərtəbə.

**Qəzetin bank hesabı**

**გაზეთის საბანკო ანგარიში**

**შპს გაზეთ „გურჯისტანი" ს/კ 203863792**

**ანგ. № GE03LB0111185703773000**

**სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22**

Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.